# MEDİADA XARİCİ DÖVLƏTLƏRLƏ BAĞLI NARRATİVLƏR

MAY 2023



*“Mediada xarici dövlətlərlə bağlı narrativlər” reportu “Fakt Yoxla” tərəfindən Azərbaycan mediasında İran, Rusiya, Türkiyə və Qərb dövlətləri haqqında dərc olunan narrativləri özündə ehtiva edir. Reportun bu sayı 2023-cü ilin 1 may - 31 may tarixlərini əhatə edir.*

***Məqsəd***. *Reportun hazırlanmasında məqsəd ölkənin media mühitində qonşu dövlətlər olan İran, Türkiyə və Rusiya və Qərb dövlətləri ilə bağlı hansı narrativlərin (hekayələrin) dərc edildiyini, dövri olaraq bu hekayələrin sayında və ya məzmununda hansı dəyişikliklərin olduğunu, hansı dövlətlərə qarşı qarayaxma kompaniyalarının aparıldığını ölkə vətəndaşlarına göstərməkdir.*

***Metodologiya***. *Monitorinq yalnız onlayn resursları əhatə edir. Heç bir televiziya və ya çap mediası monitorinqə daxil edilmir. Siyasətçilərin və qurumların açıqlamaları və ya bəyanatları monitorinqə yalnız o halda daxil edilib ki, onlara verilən başlıqlar yönləndirici olsun. Video formatında olan materiallar monitorinqin əhatə dairəsinə daxil edilməyib. Monitorinq zamanı uyğun media qurumlarının bütün dərc edilən xəbərlər gözdən keçirilib, açar sözlər vasitəsilə axtarışdan istifadə edilməyib. Monitorinqə cəlb edilən media qurumları ölkədə çox oxunma sayına və tərəfliliyinə əsasən seçilmişdir.*
*Mart ayı ərzində monitorinq edilmiş media qurumları aşağıdakılardır:*
***Apa.az, Oxu.az, Musavat.com, Sahar Azeri, Sputnik.az, Demotiya.com, Trend.az, Milli.az***

***Nəticə.*** *Nəticələrə görə bu ay ərzində monitorinq edilmiş media qurumlarında ən çox yer alan xarici dövlət İrandır. İran ilə bağlı ay ərzində 44 narrativ qeydə alınıb. Ümumilikdə monitorinqin nəticəsində 120 narrativ aşkar edilmişdir:*



## Türkiyə

Türkiyəsiz Qafqazda hansısa proses baş verə bilməz. Link (1 may 2023)

Rəcəb Təyyib Ərdoğan bu dəfə də qazandı, 21 il ərzində keçirilən bütün seçkilərin qalibidir. Müxalifətin formalaşdırdığı "altılı masa"nın Cumhuriyyət Xalq Partiyasının lideri Kamal Kılıçdaroğlunu zəfərə daşımağa gücü yetmədi. Haqq-ədalət qələbə çaldı. Türkiyə xalqı təkcə Türkiyənin yox, Türk Dünyasının uzun vədəlik müqəddəratını həll etdi. Link (28 may 2023)

Düşmənləri üzən ZƏFƏR - Ərdoğanın qələbəsi Türk Dünyasını böyük bəladan xilas etdi. Link (29 may 2023)

Qələbə sadəcə, Ərdoğanın və ya onun rəhbərlik etdiyi Ədalət və İnkişaf Partiyasının (AKP) uğuru deyil: qalib gələn Türkiyə siyasətindəki praqmatizm, ölkə vətəndaşlarının rasional seçimi və dövlətin taleyini böyük geosiyasi güclərin istəklərinə qurban vermək istəməyən imkanlar oldu. Link (29 may 2023)

Yenilməz Ərdoğan - Türkiyə liderini qalib edən SƏBƏBLƏR. Link (29 may 2023)

Türkiyədə Avropanın ən böyük günəş elektrik stansiyası istifadəyə verilib. Link (4 may 2023)

Bakı və Ankara da istənilən gedişata tam hazırdır. Bunu hətta Türkiyənin müdafiə naziri Hulusi Akarın İrəvanla Bakı arasında yeni eskalasiya təhlükəsinin olduğunu bildirməklə Ermənistana xəbərdarlıq xarakterli mesajlar verməsi də təsdiqləyir. Link (9 may 2023)

Türkiyədə prezident və parlament seçkiləri beynəlxalq seçki standartlarına uyğun keçirilib. Link (15 may 2023)

Türkiyə xalqı ötən gün tarixinin növbəti sınağından üzü ağ çıxmağı bacardı. Qardaş Türkiyədə keçirilən Prezident və Parlament seçkiləri öz şəffaflığı ilə dünyaya, xüsusilə də demokratiyadan bəhs edən dövlətlərə əsl dərs oldu. Link (15 may 2023)

Xeyirin "Şər" üzərində qələbəsi - Türkiyə qazandı! Link (28 may 2023)

Düşmənləri üzən ZƏFƏR - Ərdoğanın qələbəsi Türk Dünyasını böyük bəladan xilas etdi. Link (29 may 2023)

Türkiyə xalqı imperialist mərkəzlərin qara planlarına imkan vermədi. Link (29 may 2023)

Türkiyə nəqliyyat infrastrukturu sahəsində dünya liderlərindəndir. Link (3 may 2023)

Türkiyə seçicisi Bakı-Ankara strateji maraqlarına zərbə vurmaq istəyənləri ofsaydda qoydu. Link (15 may 2023)

BMT Türkiyə hökumətinə təşəkkür etdi. Link (16 may 2023)

Türkiyədə keçirilən parlament və prezident seçkiləri bütün dünyada diqqətlə izlənilib. Qardaş ölkə Cümhuriyyətinin 100-cü ildönümündə hər kəsə demokratiya dərsi versə də, seçkidən əvvəl olduğu kimi, seçkidən sonra da bir çox təxribat və ikiüzlü yanaşmalarla qarşı-qarşıya qalıb. Link (17 may 2023)

Qardaş Türkiyə ötən bazar tarixinin ən önəmli günlərindən birini yaşadı. Eyni anda prezident və parlament seçkiləri keçirən Türkiyə dünyanın diqqətini özünə cəlb etdi və bir daha nümunə olub. Link (20 may 2023)

Çünki qardaş ölkənin son illər əldə etdiyi ardıcıl uğurlar məhz R. T. Ərdoğanın adı ilə bağlıdır. Link (27 may 2023)

Aİ-dən Türkiyədəki seçkilərlə bağlı İLK AÇIQLAMA: Böyük qələbədir! Link (15 may 2023)

Türkiyədə keçirilən prezident və parlament seçkilərinin tam demokratik formada baş tutması əksər qərəzsiz müşahidəçilər tərəfindən vurğulanıb, faktlarla göstərilib. Link (17 may 2023)

Bu parametrlərlə götürsək, iddialar əsaslı deyil, Türkiyədə diktatura yoxdur. Çünki vaxtaşırı dürüst və qanuni seçkilər keçirilir, parlament yenilənir, bələdiyyələrdə müxtəlif partiyalar təmsil olunur. Hansı diktatura rejimində ölkənin paytaxtı və dünya miqyaslı meqapolisinin idarəsi müxaliftin əlindədir? Bir nümunə varmı? Türkiyədə isə o örnək var, İstanbul, Ankara və İzmir müxalif siyasətçilər tərəfindən idarə olunur. Hazırda ölkə parlamentində bir çox siyasi partiyanın nümayəndələri var. Siyasi plüralizmə də ciddi riayət olunur. Link (18 may 2023)

Bütün geopolitik, siyasi şərtlər, habelə reallıqlar, Türkiyə cəmiyyətinin yanaşması, xarakteri onu deməyə əsas verirdi ki, seçkilərdə növbəti dəfə Rəcəb Tayyib Ərdoğan və AKP qalib gələcək. 80 milyonluq ölkədə məhz Ərdoğan hakimiyyəti dövründə formalaşmış seçki sisteminə də kimsə saxtakarlıq iddiasında buluna bilmədi. Beynəlxalq təşkilatlar da seçkinin normal, demokratik keçdiyinə dair rəy verdilər. Seçki uğurla baş tutdu və bilindiyi kimi, Ərdoğan liderliyini rəsmən qorudu. 0,5 səs faizi ilə seçkinin ikinci turunun elan edilməsi isə Ərdoğanın demokratik yanaşmasının təzahürüdür. Link (18 may 2023)

Prezident Rəcəb Tayyib Ərdoğan ikinci tur ərəfəsində yalnız müxalifətin vahid namizədi Kamal Kılıcdaroğlunu deyil, hətta Türkiyənin Qərbdəki qəddar rəqiblərini də məğlub etmək üzrədir... Bəzi Avropa Birliyi ölkələrində prezident Ərdoğanın liderlik etdiyi Türkiyə ilə yaxın keçmişdə strateji münasibətlərin qurulmasından imtinanın böyük səhv olduğu artıq etiraf edilməyə başlayıb... Link (27 may 2023)

Türkiyə ilə bağlı ETİRAF: "Ankara böyük gücə çevrilir, biz geridə qalırıq". Link (28 may 2023)

Türkiyənin müdafiə sənayesi dost ölkələrin müdafiə ehtiyaclarını da ödəmək qabiliyyətindədir.
Link (2 may 2023)

TDT Türkiyədəki seçkilərin şəffaf keçirildiyini bəyan edib. Link (15 may 2023)

## İran

Əsasən İrandan idarə edilən dini-siyasi mərkəzlərin tapşırıqlarını yerinə yetirən şəxslərin məqsədi narkotik aludəçilərini, xurafata meylli şəxsləri öz çirkin niyyətlərinə alət etmək olub. Link (1 may 2023)

İranın molla rejimi terrorçuları Azərbaycana təhvil verməkdən imtina edib. Link (3 may 2023)

Molla rejimi hicaba görə gənc qızı zorakılıqla həbs etdi. Link (5 may 2023)

İranda məcburi hicabdan imtina edən qadınlar molla rejiminə mədəni formada etiraz edirlər. Link (7 may 2023)

İran hökumətinin haqsızlığı ilə razılaşmayan insanlar hərəsi öz tərzlərində molla rejiminin təbliğat maşınının çarxına çomaq soxurlar. Link (7 may 2023)

Hind-fars əməkdaşlığı: "islam" İranın iç üzünü göstərir. Link (9 may 2023)

İran rejimi bölgədə eskalasiya riskinin hökm sürməsində ən maraqlı tərəflərdən biridir. Link (12 may 2023)

İranın tapşırığı ilə "Kərimə" dövləti yaratmaq istəyənlər ələ keçdilər. Link (16 may 2023)

Artıq ictimaiyyətə məlumdur ki, İranda məhz Azərbaycan dövləti əleyhinə bir çox qüvvələrin hazırlanması prosesi baş verir. Link (18 may 2023)

Tehran metrosunun "Teatr-e Şəhr" stansiyasında insanlar molla rejiminə qarşı etiraz və mədəni itaətsizlik kampaniyası keçiriblər. Link (21 may 2023)

Molla rejimi xaricdə mühacirətdə yaşayan müxalif jurnalistlərin İranda yaşayan ailə üzvlərini girov götürür. Link (24 may 2023)

Tehran rejimi azərbaycanlıları qırğına verir. Link (25 may 2023)

İranın tapşırığı ilə "Kərimə" dövləti yaratmaq istəyən daha bir cinayətkar qrup ələ keçdi. Link (16 may 2023)

İranda daha iki qız məktəbi rejim məmurları tərəfindən kimyəvi hücuma məruz qalıb. Link (4 may 2023)

Molla rejimi hicaba görə gənc qızı zorakılıqla həbs etdi. Link (5 may 2023)

Saxta Pəhləvi rejiminin dövlət siyasəti səviyyəsində başlatdığı və günümüzdə də

davam edən fars şovinist siyasətinin hədəfi Güney azərbaycanlıların bu istiqamətdə özünüdərkinə mane olmaqdır. Link (11 may 2023)

İran 2022-ci ildə dünya üzrə edamların üçdəikisini həyata keçirib. Link (16 may 2023)

Belə ki, İranda keçirilmiş son parlament və prezident seçkilərində rejimin yaratdığı maneələr ucbatından seçici fəallığı son dərəcə aşağı olub. Link (17 may 2023)

Tehranda rejimdən cana doyan narazı tələbələr “Əxlaqsız sənsən, azad qadın mənəm!” şüarı səsləndiriblər. Link (24 may 2023)

Güney Azərbaycanda tarixi abidələr restavrasiya adı ilə məhv edilir. Link (25 may 2023)

İranda hər kəsi heyrətləndirən qəddarlıq: Məhbusun edamı uşaqların gözü qarşısında keçirildi. Link (26 may 2023)

İranın Güney Azərbaycanı parçalamaq siyasəti. Link (27 may 2023)

İran rejiminin ikiüzlü Ukrayna siyasəti. Link (31 may 2023)

İran terrorçuları Azərbaycana verməkdən imtina etdi. Link (3 may 2023)

İran özünü bir daha ifşa etdi. Link (4 may 2023)

Rəsmi Tehran əlaqələrin axarına düşəcəyinə inanır, lakin rejimə qulluq edən fars KİV-ləri yenə Azərbaycanı hədəf alır; dövlət başçısı isə İran elitasına son sözünü dedi: “Bizimlə təhdid və terror dili işləməyəcək!”. Link (5 may 2023)

Çox sayda İran casusu saxlanıldı. Link (5 may 2023)

İran humanitar yardım adı altında Suriyaya silah ötürüb. Link (8 may 2023)

Molla rejimi son aylarda yüzlərlə məktəbə, xüsusilə qız məktəblərinə kimyəvi terror hücumu edərək, minlərlə məktəblinin zəhərlənməsinə səbəb olub. Link (8 may 2023)

İranın casus şəbəkəsinin ifşası davam edir. Link (15 may 2023)

Ermənistana və İrana işləyən agentlər - iki qanlı əlin Azərbaycandakı barmaqları... Link (18 may 2023)

ABŞ Azərbaycandakı İran casuslarını müdafiə etdi. Link (19 may 2023)

Obalıya qarşı Bakıda hazırlanan İran təxribatı. Link (26 may 2023)

İran Xəzər vasitəsilə Rusiyaya silah verir, Qərb mane ola bilmir. Link (26 may 2023)

İranın tapşırığı ilə "Kərimə" dövləti yaratmaq istəyən daha bir cinayətkar qrup müəyyən olunub. Link (16 may 2023)

Böyük əməliyyat: İran casusları saxlanıldı. Link (5 may 2023)

Fransa, Ermənistan və İran: Azərbaycanın Orta Dəhlizdən kənarlaşdırılmasında üç ölkə ən çox maraqlı tərəf kimi görünür. Link (8 may 2023)

İranda yoxsulluq pik həddə: İnsanlar orqanlarını satır. Link (12 may 2023)

İranda azərbaycanca kitablar sərgiyə buraxılmır. Link (12 may 2023)

İranın maliyələşdirdiyi "kərimə"çilər ifşa olundu. Link (16 may 2023)

İranda azərbaycanlıların ana dilindən məhrum edilməsi, Tehran-İrəvan qardaşlığı, Müharibə zamanı ölkəmizə İranın deyil, İsrailin dəstək verməsi, Təbrizin Azərbaycanın qədim şəhəri olması, İslam Respublikasından ölkəmizə qeyri-qanuni yollarla narkotik ixracı kimi sualları doğru cavablandıran iranlı nazir obrazı güneylilər arasında rəğbətlə qarşılansa da, İran mediası bunu təhqir olaraq dəyərləndirib. Link (16 may 2023)

Güney aksiyaya hazırlaşır: Tehran rejimi basqını artırdı. Link (21 may 2023)

İran müxalif jurnalistlərin ailələrini girov götürür. Link (24 may 2023)

DİN İrandan idarə olunan bu şəbəkəni ifşa etdi. Link (1 may 2023)

## Rusiya

Hətta Qərbin Rusiyaya ixracına tam qadağa qoyması belə Rusiya iqtisadiyyatının çökməsinə gətirib çıxarmayacaq. Link (1 may 2023)

Rusiya 2014-cü ildən bəri ilk dəfə dünyanın ən böyük on iqtisadiyyatı siyahısına qayıdıb. Link (7 may 2023)

Keçmişin bir çox böyük sivilizasiyaları tarixə qərq olub, lakin hesab edirik ki, Rusiyanın şanlı keçmişinə layiq böyük gələcəyi var. Link (10 may 2023)

Rusiya inflyasiyanın azaldılması baxımından dünya liderləri arasındadır. Link (10 may 2023)

ABŞ Azərbaycanın sülh danışıqlarındakı iştirakından məmnundur. Bunu son prosesləri açıq analiz edərkən belə qənaətə gəlmək olar. Vaşinqton çox yaxşı anlayır ki, Cənubi Qafqazda sabitlik, sülh bərqərar olmadıqca bu gün Ukraynada biləyini bükməkdə hələ də çətinliklə üzləşdikləri Rusiyaya o qədər çox manevr imkanları verir, onun təsir gücünü deaktivləşdirməkdə çətinlik çəkmiş olur. Link (4 may 2023)

Rusiya sülhməramlı kontingetinin nəzarəti altında olan ərazilərdə nə baş verdiyini çox yaxşı görürük. Link (11 may 2023)

Rusiyanın "zəif yerləri"nə zərbə endirilir. Link (11 may 2023)

Rusiya sülhməramlılarının nəzarətindəki ərazilərdə nə baş verdiyini çox yaxşı görürük. Link (11 may 2023)

Paşinyan müəlliminə və sahibinə qarşı: Ermənistanda daxili siyasi gündəmi dəyişməyə çalışan Rusiya bu dəfə Nikol Paşinyanı "ram etmək" üçün proksi təsir vasitələrini seçib. Rusiyanı anlamaq olar: Moskva ermənilərin yalanlarından və siyasi əxlaqdan kənar davranışlarından bezib. Link (22 may 2023)

Rusiya sülhməramlılarının müşayiəti altında ermənilərin qanunsuz daşımaları davam edir. Link (26 may 2023)

Rusiya sülhməramlıları yenə də erməni qanunsuzluğuna göz yumurlar. Link (18 may 2023)

Ermənilər Qarabağda Rusiya sülhməramlılarının müşayiəti ilə qanunsuz hərbi daşımaları davam etdirirlər. Link (19 may 2023)

Təxribat xarakterli “təlimlər” və Rusiya sülhməramlılarının qəribə susqunluğu. Link (24 may 2023)

Sülhməramlılar ermənilərin qanunsuz hərbi daşımalarına göz yumurlar. Link (30 may 2023)

Rusiya mediasında Azərbaycana qarşı növbəti təxribat. Link (31 may 2023)

Rusiya Qarabağda təxribat törədəcəyini anons etdi. Link (2 may 2023)

Belə anlaşılır ki, Ermənistana hərbi təxribatları sifariş etmiş Kreml münaqişə tərəflərinə həm də təmkinli olmağı məsləhət görür. Bu, Rusiyanın dəfələrlə istifadə etdiyi, ancaq artıq köhnələrək, effektini itirməkdə olan taktikadır. Link (11 may 2023)

Cənubi Qafqazda sülh prosesinə əngəl olan faktorların arasında Rusiya ilk sırada yerləşir, çünki Kremli yalnız öz regional maraqları düşündürür. Link (20 may 2023)

Rusiyada hərbi qiyam yetişir: “Vaqner” Putinin düşməninə çevilir, “batan gəmi”ni tərk edir. Link (24 may 2023)

Müharibədə insanlar qırılır, Rusiya silah sənyesinin rəhbəri və oğulları milyonlar qazanır. Link (25 may 2023)

Rusiyanın müdafiə naziri Sergey Şoyqunun KTMT toplantısında "Dağlıq Qarabağ" ifadəsinə yer verdiyi açıqlaması Azərbaycanın daxili işlərinə kobud müdaxilə cəhdidir... Link (25 may 2023)

Rusiya uşaqları oğurlayıb, beyinlərini "yuyur". Link (9 may 2023)

Rusiya Qafqazı tərk edir: onu kim əvəz edəcək? Link (25 may 2023)

Putin “dəhliz” dedi, “Dağlıq Qarabağ” söylədi... Link (26 may 2023)

Putin Avropada son cəhdlərini edir. Link (30 may 2023)

Bununla yanaşı, (ermənilər) Rusiya sülhməramlılarının müşayiəti ilə yenidən silah-sursat daşınmasına cəhdlər edilir. Link (31 may 2023)

Sülhməramlılar ermənilərin qanunsuz daşımalarına göz yumur. Link (30 may 2023)

## Qərb dövlətləri

Qərb Kiyevin radikal hərəkat yaratmasında günahı öz üzərindən qaldıra bilməyəcək. Link (8 may 2023)

Vaşinqton və Kiyev boşanma ərəfəsində olan bir cütlüyə bənzəyirlər: evdə söyüş söyür, boşqabları qırırlar - ictimai yerlərdə isə sevginin nə olduğunu təsvir etməyə çalışırlar. Son günlər isə onlar üçün hər şey çox çətindir. ABŞ dövlət katibi Entoni Blinken sponsorluq edilən ukraynalılara əks-hücum üçün lazım olan hər şeyə sahib olduqlarını açıq şəkildə qeyd edərək bildirib: mübarizə və itirilmiş əraziləri geri qaytarmaq zamanıdır. Link (13 may 2023)

Əlcəzair prezidenti ilin sonuna qədər ölkənin BRİKS-ə qoşulacağını bildirib və hesab edir ki, bu təşkilatın faydaları beynəlxalq maliyyə strukturlarının köməyindən çox nəzərə çarpacaq. Bu ifadələrdən sonra Aİ Əlcəzairdə hüquqların pozulmasını kəşf edib. Link (16 may 2023)

ABŞ Ukraynadakı münaqişə vasitəsilə Rusiyanı zəiflətmək üçün Avropaya təsir edir. Link (17 may 2023)

Böyük Yeddilik" liderləri istənilən qərarlar qəbul edə bilərlər, lakin bunun Moskvanın hərəkətlərinə heç bir təsiri olmayacaq. Belə bir vəziyyətdə Qərbin aparıcı siyasətçiləri bizim bədbəxt mühacirlərimizə bənzəyəcəklər: onlar da hansısa sammitlərə toplaşmağı, Rusiya ilə nə edəcəyini müzakirə etməyi, qərar qəbul etməyi sevirlər, amma heç kim onlara qulaq asmır və onların qərarları heç kimə havayı da olsa lazım deyil. Link (20 may 2023)

ABŞ-ın dövlət borcu Rusiyanın borcunu 107 dəfə üstələyib. Link (25 may 2023)

Rusiya-Çin ittifaqı ABŞ-ın ən böyük kabusu olacaq. Link (25 may 2023)

Qərbin regionu qana bələyəcək quduzlaşmış qanlı dişləri 14 may da Türkiyədə mütləq qırılmalıdır. Link (9 may 2023)

Əslində Kılıçdaroğlunun belə çıxış etməsi, kampaniyasını bu istiqamətdə aparması təəccüblü deyil. O, atlantistlərin, başqa sözlə, Qərbin qlobalistlərinin namizədidir. Müstəqil siyasət yürütməyə çalışan, Avrasiya ölkələri ilə yaxınlaşmağa cəhd edən Ərdoğanı sıradan çıxarmaq, Türkiyəni yenidən tam Amerika nəzarətinə keçirmək planının bir hissəsidir. Qlobalistlərə müstəqil Türkiyə sərf etmir. Link (17 may 2023)

Seçki kampaniyası zamanı verilən reaksiyalar, səsləndirilən bəyanatlar Kılıçdaroğluna dəstək olan qüvvələrin hansı qütblərdə qərarlaşdığını anlamağa, görməyə kifayət edir. Bu gün Kılıçdaroğlunu dəstəkləyən əsas tərəflər kimi Qərb, ABŞ, İran amilini sezmək elə də çətinlik yaratmır. O Qərb ki, o İran ki, bu gün Türk Dövlətləri Təşkilatının yaranmasından, onun günü-gündən böyüyüb güclənməsindən, Türkiyənin həm siyasi arenada, həm də hərbi sənaye aspektdə hər ötən gün daha da qüdrətini artırmasından olduqca narahatdır. Link (13 may 2023)

Türkiyə xalqı taleyini Qərbin ümidinə buraxmadı - Seçkilərin pərdəarxası. Link (15 may 2023)

Müxalifətin prezidentliyə namizədi Kamal Kılıcdaroğlunun artıq uzun zamandır seçki vədləri Türkiyənin deyil, məhz ABŞ və Qərbin strateji maraqlarına xidmət edən bir siyasətçinin hakimiyyətə gətirilmə planlarından xəbər verirdi. Link (17 may 2023)

Türkiyə xalqı taleyini Qərbin ümidinə buraxmadı. Link (15 may 2023)

Lakin bir görürük ki, istəyinə çatmayan Qərb dairələri, okeanın o tayındakı siyasi qruplaşmalar Türkiyədəki ədalətli seçki prosesinə kölgə salmaq, Kılıçdaroğlu tərəfdarlarını ayağa qaldıraraq ölkədə etirazlar dalğası yaratmaq məqsədi ilə seçkilərin ədalətli keçirilmədiyi ilə bağlı cəfəngiyat, dezinformasiyalar, əsası olmayan məlumatlar yaymaqdadır. Link (17 may 2023)

Özünü demokratiya beşiyi sayan Qərbin Türkiyədəki seçkiləri qeyri-demokratik müşahidəsi. Link (17 may 2023)

Türkiyədə yüksək seçici fəallığı, ATƏT-in müşahidə missiyasının standart qərəzi. Link (17 may 2023)

Müxalifətin prezidentliyə namizədi Kamal Kılıcdaroğlunun seçki vədləri Türkiyənin deyil, məhz ABŞ və Qərbin strateji maraqlarına tamamilə cavab verir... CHP lideri seçkidə qalib gələcəyi təqdirdə, Türkiyəni ABŞ və Qərbdən asılı vəziyyətə salmağa yönəlik daxili və xarici siyasət kursunu anons etməkdədir... Link (8 may 2023)

Onu da qeyd etmək lazımdır ki, prezident Rəcəb Tayyib Ərdoğanın hakimiyyətdən kənarlaşdırılması ABŞ və Qərbin uzun müddətdən bəri reallaşdırmağa çalışdığı hədəfdir. ABŞ və Qərbin fəal dəstəyi ilə iki dəfə Türkiyədə dövlət çevrilişinə cəhd də göstərilib. Ancaq prezident Rəcəb Tayyib Ərdoğan Türkiyəni ABŞ və Qərbin bu kobud müdaxiləsindən qorumağı bacarıb. Və indi Türkiyə Qərbin növbəti müdaxilə cəhdləri ilə qarşı-qarşıya qalıb. Link (14 may 2023)

ABŞ və Qərbin Türkiyə planı iflasa uğradı: "Türk yolu" isə Azərbaycandan keçəcək. Link (15 may 2023)

ATƏT-in seçki qərəzi- Qərbin anti-Türkiyə mövqeyi davam edir.. Link (17 may 2023)

Neçə vaxtdır həm Avropada, həm də öz ölkəsində adamın soyadının qabağındakı “Rəcəb Tayyib” adını ixtisar ediblər, “diktator Ərdoğan” yazırlar. Bəzən heç “Ərdoğan” da yazmırlar, eləcə ondan bəhs edərkən “diktator” kəlməsi işlədirlər. Link (18 may 2023)

BAKI 2023